BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Humanitar elmlər seriyası 2007

# ŞİMALİ AZƏRBAYCAN XANLIQLARININ RUS İŞĞALINA QARŞI MÜBARİZƏSİ

**A.C.SEYİDOVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti*

Uzun müddət sovet tarixşünaslığında 1796-cı ildə B.Zubovun başçılığı altında rus qoşunlarının Azərbaycana işğalçılıq məqsədi ilə gəlməsini «yürüş» və ya «xilasкar» кimi qiymətləndirmişlər. Təqdim olunan məqalədə mənbə və ədəbiyyatların təhlili ilə bu problemə aydınlıq gətirməyə səy göstərilmiş, rusların bu aкsiyası işğalçılıq кimi qiymətləndirilmişdir.

***

Ağa Məhəmməd şah Qacarın birinci hücumundan hərtərəfli zərər görmüş Şimali Azərbaycanda olduqca mürəккəb siyasi durum müşahidə olunurdu. Rusiyanın işğalçılıq planlarından heç vaxt кənarda qalmayan Azərbaycana hərbi müdaxilə üçün əlverişli şərait yaranmışdı. Bunu nəzərə alan II Yeкaterina höкuməti 1796-cı ilin əvvəllərində Azərbaycana general V.Zubovun başçılığı altında böyüк ordu göndərməк haqqında qərar qəbul etdi. Elə həmin il fevralın 19-da II Yeкaterinanın V.Zubovun ordusu qarşısında qoyulan vəzifələri özündə əкs etdirən resкripti dərc olundu.[1] Resкriptdən aydın olur кi, V.Zubovun ordusu qarşısında yalnız Ağa Məhəmməd şah Qacarı Cənubi Qafqazdan qovmaq deyil, həm də İrandan кeçməклə Hind oкeanına çıxmaq кimi geniş işğalçılıq vəzifəsi qoyulmuşdu.

Rusiya höкuməti Gürcüstanın gücləndirilməsinə və onun Cənubi Qafqazda hegemon qüvvəyə çevrilməsinə böyüк diqqət verirdi. Heç də təsadüfi deyil кi, II Yeкaterina 1796-cı il yürüşü zamanı V.Zubovun qarşısında Azərbaycanın Gəncə və İrəvan xanlıqlarını Gürcüstana birləşdirməк vəzifəsi qoymuşdu.[2] Bundan başqa höкuməti hələ də Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq planından əl çəкməmişdi. Bu planın həyata кeçirilməsində böyüк canfəşanlıq göstərən erməni arxiyepisкopu İ.Arqutinsкinin V.Zubovun rəsmi məsləhətçisi təyin edilməsi də görünür elə bununla sıx bağlı idi. Məhz həmin İ.Arqutinsкi Dərbəndə gəldiкdən sonra Qarabağ məliкlərinə müraciət edərəк bildirmişdir кi, rus qoşunlarının Cənubi Qafqaza yürüşünün başlıca məqsədi «erməniləri müsəlmanların əsarətindən xilas etməкdi».[3]

[1] Rusiya Dövlət Hərbi Aкtlar arxivi (RQADA), f.1406, siy.I, iş 339, v.3-29; Мустафаев Дж.М. Северные ханства Азербайджана и России. Баку, 1988, 88 с.

[2] Цагарели А. Грамоты и другие исторические документы XVIII столетия, относящиеся к Грузии. Т.II, вып.II, с.14.

[3] Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. Т.III, СПб., 1886, с.147-148.

Rusiya hökumətinin bütün Cənubi Qafqaza, o cümlədən Azərbaycana dair də konkret işğalçılıq planı var idi. Bu plana görə V.Zubov Dərbəndi işğal etdikdən sonra Xəzər dənizindəki rus hərbi donanmasının köməyilə Bakı və Lənkəran xanlıqlarını nəzarət altına almalı idi. Eyni zamanda əsas korpusdan ayrılan xüsusi Qafqaz korpusunun vasitəsilə Şamaxı və Gəncə xanlıqlarının işğal edilməsi nəzərdə tutulurdu.[1]

Yürüşdə iştirak etmək üçün nəzərdə tutulmuş bütün qüvvələrin toplanmasını gözləməyən V.Zubov 22305 nəfərlik ordu ilə 1796-cı il aprelin 13-də Qızlardan Dərbənd istiqamətində hərəkətə başladı və aprelin 29-da Dərbənddən 18 verst geriyə çəkilmiş İ.Savelyevin qüvvələri ilə birləşdi.[2] Beləliklə, 1796-cı ilin yazında Dərbənd üzərinə yeridilən rus ordusunun sayı təxminən 26 min nəfərə çatırdı. Elə həmin dövrə aid arxiv sənədinin verdiyi məlumata görə Dərbəndi müdafiə edən qarnizondakı qüvvələrin sayı 11 min nəfərdən artıq deyil.[3] Quba xanı düşmənin çox güclü ordusu qarşısında tək qalmışdı. Bakılı Hüseynqulu xanın topçularla birlikdə göndərdiyi iki top[4] nəzərə alınmazsa, digər Azərbaycan xanları ona heç bir yardım göstərmədilər. Bu isə rus ordusunun əvvəlcə Dərbəndi, sonra isə digər Azərbaycan torpaqlarını işğal etməsini xeyli asanlaşdırdı.

V.Zubovun başçılıq etdiyi rus ordusunun əsas hissələri mayın 2-də Dərbəndə yaxınlaşdı. Dərbəndlilərlə ruslar arasında ilk döyüş şəhərin 4 km-də baş verdi. Dağlarda əlverişli mövqe tutan Şeyxəli xanın süvari və piyada qoşun hissələri 3 saat ərzində rusları güclü atəşə tutsalar da onların Dərbəndə yaxınlaşmalarının qarşısını ala bilmədilər.[5]

Bir neçə gün güclü top atəşlərinə tutulduqdan sonra mayın 10-da Dərbəndin qala divarları dağıdıldı. Bundan sonra müdafiənin mənasız olduğunu başa düşən Şeyxəli xan qalanı təslim etməyə məcbur oldu. Dərbəndin ələ keçirilməsi ruslara 11 zabit və 200 əsgərin həyatı bahasına başa gəldi.[6] Təəssüf ki, dərbəndlilərin məruz qaldıqları itkilər haqqında mənbələrdə heç bir məlumat verilmir. Ruslar Dərbəndin müdafiəçilərinə məxsus 28 topu və 11 min tüfəngi müsadirə etdilər. Şeyxəli xan və onun yaxın adamları əsir götürüldülər. General Savelyev Dərbəndin komendantı təyin edildi.[7] Qubalı Şeyxəli xan bu işğalla barışmadı, əksinə rus işğalçılarına qarşı mübarizə aparmaq üçün fürsət gözləməli oldu.[8] İşğalı qəbul etməyən Dərbənd əhalisi rus qarnizonuna hücum planı hazırlayırdı. Erməni satqınlığı burada da öz işini gördü və plan pozuldu.[9]

---

[1] РГАДА, ф.1406, оп.1, д.399, лл.3-29 об.; Списки населенных мест Российской империи. Тифлис, 1870, 80 с.

[2] Rusiya Dövlət Hərbi Tarix arxivi (RQVİA), f.41, op.200, d.614 a, l.66; d.629, l.10 ob. -11.

[3] Yenə orada, iş 629 a, v.10-11.

[4] Искендерова М. Бакинское ханство. Баку, 1999, 123 с.

[5] Потто В. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.I, вып.I, СПб., Тифлис, 1885, 287 с.

[6] Yenə orada, 288 s; Эсадзе С. Исторический очерк распространения русской власти на Кавказе, Тифлис, 1913, 30 с.

[7] Potto V. Göstərilən əsəri, 288 s.

[8] Rusiya Dövlət Hərbi Tarix arxivi (RQVİA), f.41, siy.200, iş 614, v.135-139.

[9] Жизнь Артемия Араратского. М., 1981, с.127-128.

Rus ordusu Quba və Bakı xanlıqlarını işğal etmək üçün hərəkətə başladı. İyunun 6-da rus qoşunları, demək olar ki, heç bir müqavimətə rast gəlmədən Qubanı ələ keçirdilər və Bakı istiqamətində hərəkətə başladılar.[1] Bakılı Hüseynqulu xanın işğala mənfi münasibəti Dərbəndin ruslar tərəfindən tutulmasından sonra daha da kəskinləşdi.[2]

Hüseynqulu xan rus qoşunlarının Bakı xanlığının ərazisinə daxil olmasının qarşısını almaq üçün hazırlıq işləri görürdü. Onun rus qoşunlarının hərəkəti haqqında şamaxılı Mustafa xana məlumat verməsi də, görünür, bu məqsədə xidmət edirdi. Bu baxımdan V.Zubovun verdiyi məlumat xüsusi maraq doğurur. O, yazırdı ki, əvvəllər düşmən olan Şamaxı və Bakı xanları rus qoşunlarının hücumu şəraitində birləşməyə məcbur olmuşdular. Bu məlumatdan aydın olur ki, özü güclü müqavimətə hazırlaşan Bakı xanı şamaxılıları da belə addım atmağa çağırırdı.[3]

Lakin qüvvələr nisbətində olan kəskin fərq bakılı Hüseynqulu xanı ruslara qarşı silahlı müqavimət göstərmək fikrindən daşınmağa məcbur etdi. 1796-cı il iyunun 13-də Bakı xanı rus qoşunlarının Gilgilçay sahilindəki düşərgəsinə gəldi və şəhərin qala qapılarının açarlarını ona təqdim etdi. Bundan bir neçə gün sonra general-mayor Raxmanovun başçılıq etdiyi rus hərbi birləşməsi Bakı şəhərini ələ keçirdi.[4] General V.Zubovun özünün başçılıq etdiyi əsas ordu isə Şamaxı xanlığının ərazisinə daxil oldu. Bütün bu müddət ərzində V.Zubovun ordusu ilə birgə hərəkət etməyə məcbur olan Şeyxəli xan buradan qaçmaq və işğalçılarla mübarizəni yenidən davam etdirmək üçün imkan axtarırdı. 1796-cı il iyunun 19-da o rus ordusunun düşərgəsindən qaçdı.[5] Onun əsirlikdən qaçması ilə Quba xanlığında və bütün Cənubi Qafqazda rus işğalçılarına qarşı mübarizənin yeni mərhələsi başlandı.

1796-cı ilin yayında və payızında Quba xanlığında və Cənubi Dağıstanda yaranmış vəziyyətin təhlili göstərir ki, bu dövrdə rus işğalına qarşı mübarizə tədricən ümumxalq xarakteri alırdı. Yerli əhaliyə məxsus silahlı dəstələr qəflətən rusların üzərinə hücum edərək onlara ağır zərbə vururdular. N.F.Dubrovin yazır ki, sentyabrın 29-da və 30-da belə hücumlara məruz qalan ruslar özlərinin ərzaqla dolu 23 arabasını, 145 öküzünü və bir neçə əsgərini itirdilər.[6] Şeyxəli xan təkbaşına rus ordusuna qarşı mübarizənin çətinliyini başa düşərək digər Azərbaycan xanlarını və Cənubi Dağıstan hakimlərini öz ətrafında birləşdirmyə çalışırdı. N.F.Dubrovin yazır ki, Quba xanı özünün yaxın müttəfiqi Surxay xan vasitəsilə şamaxılı Mustafa xan və şəkili Səlim xanla əlaqə yaratmışdı.[7] Qubalı Şeyxəli xan qazıqumuqlu Surxay xanla birlikdə Qubanın Alpan kəndində rusların qoşun hissəsinə ağır zərbə vurdu. P.O.Bobrovski yazır ki, qısa müddət ərzində podpolkovnik Bakunin, kapitan Semyonov, daha beş zabit və 245 nəfər əsgər öldürüldü, 55 nəfər isə yaralanaraq sıradan çıxarıldı. Müttəfiqlər eyni zamanda 274 tüfəng və

---

[1] РГАДА, ф.5, д.87, ч.IV, л.234.
[2] Azərb. MEA TİEA, iş 3650, v.125; İsgəndəova M. Göstərilən əsəri, 123 s.
[3] RQVİA, f.41, op.200, d.61 a, ll.199-202.
[4] Dubrovin H.F. Göstərilən əsəri, III hissə, 199 s.
[5] Серебров А.Г. Историко-этнографического описание Дагестана 1796. История, география и этнография Дагестана XVIII-XIX вв. Архивные материалы. М., 1958, с.192-193.
[6] Dubrovin H.F. Göstərilən əsəri, s.176-177.
[7] Yenə orada, 25 s.

174 tapança ələ keçirdilər.[1] Sonra əlavə itkilər verməmək üçün müttəfiqlər dağlara çəkildilər.

Qeyd etdiyimiz kimi, rus qoşunları 1786-cı il iyulun əvvəllərində Şamaxı xanlığının ərazisinə daxil oldu. Mustafa xan heç də bunu arzulamırdı.[2] V.Zubov çox çətinliklə onu öz düşərgəsinə dəvət edə bildi. Görüş zamanı V.Zubov II Yekaterinanın adından Mustafa xanı himayədarlıq edəcəyinə söz verdi.[3]

Hadisələrin gedişi göstərirdi ki, Azərbaycan xanlarının rus ordusuna qarşı birgə mübarizə aparmaq cəhdi bir qədər gecikmiş addım idi. Düşmən ordusunu sərhəddə qarşılayıb onu ölkənin içərilərinə buraxmamaq imkanı artıq əldən verilmişdi. Quba, Bakı və Şamaxı xanlıqlarını ələ keçirmiş rus komandanlığı Azərbaycan xanlıqlarının birləşmək cəhdlərinin qarşısını almaq üçün əlverişli imkan qazandırmışdı.

Rus ordusunun Şəki xanlığına yaxınlaşdığı vaxt Səlim xan Qazıqumuq hakiminin cavabını uzun müddət gözləyə bilmədi. Görünür, Səlim xan da rus komandanlığı ilə üzdə dostluq münasibəti yaratmağa, əslində isə ona qarşı mübarizə tədbirləri görmək qərarına gəlmişdi. 1796-cı il iyulun 7-də Şəki xanının nümayəndəsi V.Zubovun düşərgəsinə gəldi və öz hakiminin məktubunu ona təqdim etdi. Səlim xan xahiş edirdi ki, V.Zubov Şəki xanlığının Rusiyanın himayəsinə keçməsi üçün andlı öhdəliyi imzalamaq üçün ona göndərsin.[4] V.Zubovun II Yekaterinaya göndərdiyi 25 iyul 1796-cı il tarixli raportundan göründüyü kimi Səlim xan təxminən iyulun sonlarında Rusiyanın himayəsinə keçmək haqqında sənədi imzalamışdı.[5]

Rus qoşunlarının Azərbaycana hücumu daha çox qarabağlı İbrahimxəlil xanı təlaşa salmışdı. Rusiya hökuməti Qarabağda erməni dövləti yaratmaq fikrində idi. Bunu ona Kartli-Kaxetiya çarı II İrakli xəbər vermişdi.[6]

Belə bir şəraitdə digər Azərbaycan xanları kimi İbrahimxəlil xan da rus işğalçı ordusuna qarşı mübarizə aparmaq üçün qəti addımlar atmaq qərarına gəldi. N.F.Dubrovinin verdiyi məlumatdan aydın olur ki, bu orduya qarşı mübarizənin təşkilatçısı da məhz İbrahimxəlil xan oldu. O yazırdı ki, «İbrahim xan ruslara qarşı mübarizə ittifaqı yaratmaq məqsədilə öz nümayəndələrini şamaxılı Mustafa xanın və şəkili İbrahim xanın yanına göndərdi.[7] Xanlar V.Zubova qəsd planlaşdırdılar. Lakin qəsdin üstü tezliklə açıldı.[8] Yaranmış vəziyyət İbrahimxəlil xanın və Mustafa xanın vəziyyətini xeyli ağırlaşdırdı. V.Zubov erməni məliklərinə daha çox arxalanırdı.

Bunu istər rus ordusu ilə birlikdə Azərbaycana gəlmiş ermənilərin, istərsə də Qarabağ məliklərinin hədsiz dərəcədə fəallıq göstərmələrindən də görmək olar. İ.Arqutinski hələ 1793-cü ildə hazırladığı erməni rus

---

[1] Бобровский П.О. История 13-го лейб-гренадерского эриванского его величества полка за 250 лет (1642-1822), ч.III, СПб., 1893, 63 с.

[2] Мустафаев Дж. М. Новые данные об отношении азербайджанских ханов к походу русских войск в Азербайджан в 1796 г. Доклады АН Азерб. ССР. 1982, т.XXXVIII, №2, с.96-72.

[3] РГВИА, ф.41, оп.200, д.614 а, л.316.

[4] РГВИА, ф.41, оп.200, д.614 а, л.316.

[5] Yenə orada, l.142-244; Мустафаев Дж. М. Северные ханства Азербайджана… 94 с.

[6] Dubrovin N.F. Göstərilən əsəri, 16 s.

[7] Yenə orada, s.17-18.

[8] Жизнь Артемия Араратского. 136 с; Məmmədova G. Göstərilən əsəri, 57 s.

müqaviləsinin layihəsini məhz bu yürüş zamanı Rusiya hökumətinə təqdim etmişdi. Erməni arxiyepiskopunun hazırladığı bu müqavilə layihəsinə görə Azərbaycan ərazisində erməni çarlığı yaratmaq nəzərdə tutulurdu. Rusiya dövlətini bu layihəni həyata keçirməyə şirnikləndirmək üçün yaradılacaq erməni dövlətinin hakimini təyin etmək və onun ərazisində rus ordusu saxlamaq hüququ rus çarına verilirdi.[1]

N.F.Dubrovinin göstərdiyi kimi, artıq «ermənilər» «Böyük Ermənistan» çarlığının bərpa edilməsi haqqında düşünürdülər.[2] Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, ermənilər vaxtından çox əvvəl sevinirlər.

V.Zubovun başçılıq etdiyi rus ordusu onun qarşısına qoyulan vəzifənin çox cüzi hissəsini yerinə yetirə bilmişdi. Bir tərəfdən ordunun ərzaq və sursatla pis təchiz edilməsi, digər tərəfdən isə Azərbaycan xanlarının bu orduya düşmən münasibəti və mübarizəsi V.Zubova 1796-cı il üçün nəzərdə tutulan işləri yerinə yetirməyə imkan vermədi. Yalnız həmin ilin payızında Muğana çatan V.Zubov hərbi əməliyyatları növbəti ilin yazına qədər təxirə salmaq qərarına gəldi. Oktyabrın 6-da Cavad kəndində keçirilən hərbi şura növbəti il üçün nəzərdə tutulan hərbi əməliyyat planını hazırlayıb təsdiq edilmək üçün Peterburqa yola saldı.[3] Eyni zamanda işğal olunmuş ərazilərin idarə edilməsi və möhkəmləndirilməsi üçün də müəyyən tədbirlər həyata keçirmək qərara alındı. Polkovnik Kovalenski işğal olunmuş ərazilərdə Rusiyanın səlahiyyətli nümayəndəsi təyin edildi. Onun qarşısında yerli hakimlərlə münasibətləri qaydaya salmaq vəzifəsi qoyulmuşdu.[4] Bakı limanının da yenidən qurulması üçün müəyyən tədbirlər görmək nəzərdə tutulmuşdu.

Lakin rus komandanlığı nəzərdə tutulan bu tədbirlərdən heç birini həyata keçirə bilmədi. V.Zubov yazırdı ki, «bu xanlar məni özlərinin ümumi düşməni hesab edərək öz aralarında davam edən çəkişmələrə müvəqqəti son qoydular və (rus) ordusuna qarşı düşmənçilik hərəkətlərinə başladılar.[5] 1796-cı il noyabrın 6-da II Yekaterinanın ölməsi ilə əlaqədar yürüş yarımçıq dayandırıldı. Yeni rus çarı I Pavel Azərbaycandakı rus ordusuna hərbi əməliyyatları dayandırmaq və Qafqaz xəttinə dönmək haqqında əmr verdi.[6] Bununla da, rus ordusunun 1796-cı ildə Azərbaycan torpaqlarını işğal etmək cəhdi iflasa uğradı.

## БОРЬБА ПРОТИВ ЗАХВАТА СО СТОРОНЫ РОССИИ СЕВЕРНЫХ ХАНСТВ АЗЕРБАЙДЖАНА

**А.Дж.СЕИДОВА**

### РЕЗЮМЕ

В середине 90-ых годов XVIII столетия со стороны России сложились благоприятные обстоятельства для военного вторжения в Азербайджан. На основании указа-

---

[1] Историко-филологический журнал АН Арм. ССР, 1947, №1/176, 247 с.
[2] Dubrovin N.F. Göstərilən əsəri, 15 s.
[3] Мустафаев Дж. М. Северные ханства Азербайджана. 96 с.
[4] Mustafayev C.M. Göstərilən əsəri, 97 s.
[5] Məmmədova G. Göstərilən əsəri, 56 s.
[6] Mustafayev C.M. Göstərilən əsəri, 97 s.

ния Екатерины 13 апреля 1796 года генерал В.Зубов с целью захвата направился в направлении Дербенд. Несмотря на сильное сопротивление, он сумел захватить Губинское, Бакинское, Шамахинское ханства. Приобретя выгодную позицию, В.Зубов начал переговоры с Гарабагским и Шекинским ханствами. Хотя эти ханства и были вынуждены быть под влиянием России, они готовились, чтобы проявить сильное сопротивление.

Даже генерал-захватчик признал, что Гарабагские и Шекинские ханы, считая его своим общим врагом, объединились и временно покончили с войнами между собой. Они начали к военным действиям против российской армии. В результате обшей борьбы, попытка российской армии захватить азербайджанские земли в 1796 году потерпело поражение.

## STRUGGLE OF NORTHERN AZERBAIJAN KHANATES AGAINST RUSSIAN OCCUPATION

**A.J.SEYIDOVA**

**SUMMARY**

There appeared a favorable situation for Russian military intervention to Azerbaijan, which had long set his eyes on Azerbaijan, in mid 90s of XVIII century. Under the order issued by Catherine, General V.Zubov began moving towards Darband and despite the serious resistance by Guba, Baku and Shamakha khanates, he managed to occupy those territories. Having gained a favorable position, V.Zubov started negotiations with Karabakh and Shaki khanates. Though forced to accept Russian allegiance, those khanates were preparing for serious withstand.

The occupant general once even admitted that seeing in me their common enemy Karabakh and Shaki khanates halted the continuing animosity between them, and perpetrated hostile acts against Russia troops. The joint withstand brought about failure of Russian army to occupy Azerbaijan in 1796.